# ŞAİR AVDI QOŞQAR "RUHUN DAŞQINI"NDA



**Şəddat CƏFƏROV**
***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Şair-telepublisist Avdı Qoşqarı, şəxsən özünü tanımasam da, maraqlı verilişlərin ssenari müəllifi, redaktoru kimi çoxdan tanıyıram. Az qala 30 il bundan əvvəl *"Məqam"*, sonra *"Elat"*, daha sonra digər bədii-publisistik tele-sujetlərin müəllifi kimi məşhur olanda da şəxsi görüşümüz olmamışdı. Amma onun Azərbaycan diyarını başdan-başa gəzərək vətəni tərənnüm edən tele-əsərlərini maraqla izləməkdə davam edirdim. Ona *"Əməkdar jurnalist"* fəxri adı veriləndə də bu xəbəri onun telejurnalistikamızdakı xidmətlərinin qanunauyğun nəticəsi kimi qarşıladım.

Axır ki, bir gün gəldi... Avdı Qoşqarla şəxsən tanış olmaq imkanı yarandı. Əlbəttə, bu da mətbuatımızın, publisistikamızın, eləcə də, poeziyamızın tanınmış nümayəndəsi olaraq Əli Rza Xələflinin sayəsində mümkün oldu. Mən bilirəm ki, ədəbi mühitimizin qaynar yaradıcılıq təbiəti olan müəlliflərinə Xələflinin xüsusi rəğbəti var. O, ruhuna doğma olan müəlliflərin yaradıcılığını rəhbərlik etdiyi *"Kredo"* qəzetində həmişə öz dəsti-xətti ilə oxuculara təqdim edir. İndi, demək olar ki, Xələfli qədər müasir poeziyamızı (elə bütövlükdə ədəbiyyatımızı) ardıcıl izləyən və təəssüratlarını qələmə alan az-az müəlliflər var. Bu mənada onun Avdı Qoşqar yaradıcılığını yazıya gətirməsi haqqında kitab yazması başa düşüləndir.

Əli Rza Xələfli Avdı Qoşqar yaradıcılığına iki kitab həsr edib; *"Göy üzündə səs"* (2018) və *"Ruhun daşqını"* (2019). Bu kitablarda Avdı Qoşqarı əhatə edən ədəbi mühitin onun yaradıcılığına münasibəti diqqətə çəkilir. Onun haqqında yazan müəlliflərin məqalələrinə də tənqidçi-pubisist münasibəti obyektivliyi ilə seçilir. Amma mən bu qeydlərimdə Xələflinin *"Ruhun daşqını"* kitabı ilə bağlı düşüncələrimi bölüşmək istərdim. Oxuculara yaxşı məlumdur ki, poetik əsər yaradıcının ruhunda baş verən təlatümlərin nəticəsi kimi yaranır. Hansı şairin təbiətində qaynarlıq idarə olunmursa, hansı yaradıcının varlığında dalğalanan hisslər vulkan kimi püskürürsə, düşüncə məhsulu, xüsusilə poetik əsərlər oxucunun mənəviyyatına güclü təsir göstərir. Oxucu istər-istəməz poetik əsərin cazibəsinə düşür. Onun haləsində dolanır. Bir az da dərinə getsək, öz varlığının düşüncə aləmini poetik cazibənin təsiri ilə nizamlayır. Güclü poetik əsərlərin insanların mənəvi saflaşmasında rolu əvəzsizdir.

*"Ruhun daşqını kitabı"* Əli Rza Xələflinin Avdı Qoşqarın poetik yaradıcılığına həsr etdiyi məqalələr toplusudur. Amma maraqlıdır ki, müəllif bu məqalələri nə qədər ayrı-ayrı ədəbi düşüncə məhsulu kimi araya-ərsəyə gətirirsə, bir o qədər də bu yazıları bir-birinin davamı kimi işləyir. Nəinki faktlar, ayrı-ayrı bədii lövhələr məqalələrdə bir-birini təkrarlamır, Hətta hər bir yazı yeni fikir üzərində ərsəyə gəlir.

Kitaba yazılmış annotasiyanı qabaqcadan oxucu diqqətinə çatdırmağı daha vacib hesab edirəm. Çünki nəşriyyat təqdimatı olaraq nəşrə hazırladığımız kitabın mahiyyətini bu təqdimatda ifadə etməyə çalışmışıq: *"Şair-publisist Əli Rza Xələflinin "Ruhun daşqını" adı ilə oxuculara təqdim olunan kitabına şair-publisist, Əməkdar jurnalist Avdı Qoşqarın həyat və yaradıcılığından bəhs edən məqalələri toplanıb. Kitaba toplanan məqalələr ayrı-ayrı vaxtlarda yazılsa da, Avdı Qoşqarın poetik yaradıcılığı haqqında dolğun təsəvvür yaradır. Yazılar publisistik üslubda, canlı dillə qələmə alındığından maraqla oxunur. Şairin həyat, cəmiyyət və təbiət hadisələrinə poetik müdaxilə və münasibəti ədəbi təhlil süzgəcindən keçirilir, düşüncənin alt qatına nüfuz edilir; bununla da oxucu ilə kitab arasında səmimi ünsiyyət körpüsü yaradılır".* Beləliklə, bu nəşriyyat qeydləri ilə tanışlıqda oxucu üçün Əli Rza Xələflini Avdı Qoşqara bağlayan əlaqələri də görə bilirik. Ədəbi dəyərlər elə bir istinaddır ki, həyata münasibət doğmalığını özündə əks etdirə bilir. Başqa sözlə, cəmiyyətin ağrılı tərəfləri şairi necə narahat edirsə, tənqidçini də elə həmin yerdən, o cür narahat edir. Bu mənada *"Ruhun daşqını"* kitabının müəllifi Avdı Qoşqarı düşündürən problemlərin ağrılarını özü də yaşayır.

"Ruhun daşqını" kitabına istedadlı nasir, tənqidçi, filologiya elmləri üzrə fəlsəfə doktoru Şəfəq Nasir geniş və əhatəli "Ön söz" yazıb.

Biz öyrənmişik ki, kitablara yazılan *"Ön söz"*lərə ötəri baxaq. Sanki burada nə deyildiyini, nəyin deyilə biləcəyini bəri başdan bilirik. Ancaq Şəfəq Nasir kitabı çox diqqətlə oxuyub. Çox orijinal bir yazı ilə "Ruhun daşqını"nın əhatə etdiyi psixoloji mühiti açmağa çalışıb. Və elə bəri başdan deyirəm ki, buna çox uğurla nail olub. Kitabdakı məqalələrin adlarını sıra ilə növbələyərək oxucu diqqətinə çatdırmaq, bu məqalələrin mahiyyəti haqqında öz düşüncələrimi bölüşməsi qərarına gəlmişdim. Amma Şəfəq Nasirin yazısını oxuyanda onun Əli Rza Xələflinin özünəxas emosional üslubda yazılarının mahiyyətini göstərən maraqlı sərlövhələrin mənalanması məni fikrimdən döndərdi. İstədim ki, oxucu da Şəfəq Nasirin qələmində hər bir başlığın necə oynaq, cəzbedici mahiyyət daşıdığını özü hiss etsin. Şəfəq Nasir yazır: *"Bəli, "Ruhun daşqını"nda müəllif Avdı Qoşqar yaradıcılığının ideyasını, mövzularını və bunların mahiyyətində dayanan dərdləri, ağrıları, şairin hayqırtısını, üsyankarlığını arayıb-aradıb incələyərək düşüncəsində nizamladığı ardıcıllıqla ipə-sapa düzüb. Fikirlər toplusunu səsinə uyğun notlarda yerləşdirib. Nəticədə belə bir məntiqi ardıcıllıq alınıb: "Göy üzündə səs" - Avdının səsi yağış təki göylərdən yağır; "Yerlə göyün arasında" - yerlə-göylə əlləşən şairlərdən olduğu üçün o həmişə əbədi savaşdadır. Bu, müəllifin yazdığı kimi, qanı ürəklərə süzülən ruhun savaşıdır; "Sarayın bünövrə daşı" - yaradıcılığa gəldiyi yolun başlanğıcından düşüncə adamı kimi yetişməsi, yeni nəfəsin, ilk söz işığı; "Gördüyüm dünyanın ağrısı" - yaşadığı ağrıların yaradıcılığında əksi; "Ruhun daşqını" - təbiət daşqınları kimi, insan ruhunda yaranmış üsyanların, qəzəbin, qanı daman sözünün daşqınları; "Üzü küləyə nəğmələr" - bu, Avdı Qoşqar duyğularının qavranılmasıdır. Müəllifin dediyi kimi, "Üzü küləyə nəğmələr"i hər şair oxuya bilməz; "Ürək-ürək insan gəzmək" - Avdı Qoşqar mükəmməl insan obrazını yaratmaqdan ötrü "ayağında dəmir çıraq, əlində əsa" illər uzunu bədii axtarışda olub, "ürək-ürək insan gəzib"; "Yaşasın Domokl qılıncı" - şair 60 yaşa hansı ədəbi yolla gəlib... Əli Rza müəllim burada "Yetdim altmışa" şeirini söz ələyindən keçirib; "Hər damlada bir işıq" - Əli Rza Xələfli bu işığı şairin şeirlərindən seçmələrdə axtarıb tapıb və bizi o işığı görüb-duymaqdan ötrü poetik düşüncələrin dərin qatlarına çəkə bilib; "İnsanın dəyəri" - burada Avdı Qoşqarın ədəbi çəkisi, şəxsiyyəti, yaradıcılığının cövhəri ilə ölçülür".* Şəfəq Nasirin düşüncəsindən gələn sözlər bir-birinə məna əlaqəsi ilə elə bağlanır ki, mətnin arasına girmək olmur. Sanki Avdı Qoşqar şeirlərini yazanda necə havalanıbsa və Əli Rza Xələfli bu havanın cazibəsinə düşərək ruhən necə qanadlanıbsa, Şəfəq Nasir də bədii emosional düşüncəsi ilə bu havaya qovuşa bilib. Bu da istər-istəməz bizi sevindirir. Yəni, mətn boyu quru, yapışqısız cümlələrlə yox, gözümüzü ahənruba kimi özünə çəkən duyğulanmalarla üz-üzə qalırıq.

Avdı Qoşqar təbiət etibarı ilə sözündə yanğı olan şairdir. Onun yaradıcılığında şair nəfəsi həyatın ən ağrılı məqamlarını yandıra-yandıra sözə gətirir. Maraqlıdır ki, Xələfli də Avdı Qoşqar yaradıcılığına həsr etdiyi məqalələrdə sanki bir-birinə bənzəməyən fikir tonqalları çatır. Düşüncə alovlarını nəfəsi ilə oxucu varlığına bülənd edir. Mənə tanış olan kitabı sanki təzədən oxuyuram. Əli Rza Xələfli nə qədər Avdı Qoşqarla üz-üzə dayana bilirsə, Şəfəq Nasir nə qədər bu üz-üzə dayanmanın portretini emosional publisistikası ilə çəkə bilirsə, mən də elə həmin hisslərlə ədəbiyyatımızın bu cəfakeş insanlarının söz mühitinə özümü bir o qədər doğma və yaxın bilirəm.

Əli Rza Xələfli yaradıcılığını təhlilə çəkdiyi müəllifin adi publisistik düşüncələrini də xüsusi emosiya ilə mənalandıra bilir. Çox ola bilsin ki, kimsə Avdı Qoşqarla müsahibəyə adi bir nəzərlə iki yaradıcının duyğu və düşüncələrini bölüşməsi kimi baxa bilərdi, amma Xələfli Avdı Qoşqara mənəvi mühitini rahatsız edən problemlərlə bağlı məktub yazır. Sonra onunla üzbəüz dialoqa girir. Müsahibəsini qələmə alır. Bu janrlarda da (məktub və müsahibə) Xələfli qələmini orijinallığı ilə seçdirir. Duyğusallıq yenə qabarıqlığı ilə üzə çıxır. Həyat, cəmiyyət haqqında yaradıcı ziyalıların çəkdikləri sözdə təzahürünü tapır. Şəfəq Nasir də sözün ağını, qarasını seçən, sözün rəng çalarlarını yaxşı bilən tənqidçi-publisist nəzəri ilə həm Xələflinin, həm də Avdı Qoşqarın sözə çevrilmiş duyğularına dəyər verir.

Şəfəq Nasirin qeydlərinin davamına baxaq: *"Diqqət edək: "Və Avdı Qoşqara bir məktub" - sözə təşnə, dərdliyə dərddaş olan Əli Rza Xələfli insanın mənəvi, ictimai ağrılarını diqqətə çəkir; "Müsahibə: Cəzanı tanrıdan istəmək" - qəhrəmanı ilə üz-üzə söhbət duyğusal dostların mənəvi bağlılığının əsas amilidir; "Bizdən sonra yaşarı sözümüz" - ...ömür bitər, söz bitməz... müəllif Avdı Qoşqarın son şeirlərini (axarıncı) yeni daşqın hadisəsi prizmasından səciyyələndirir; "Müəllif haqqında məlumat" - Əli Rza Xələflinin ömürlüyü haqqında ilk dəfə eşitdiyim yepyeni məlumatı və 50-yə qədər adda kitabı heyrətlə, rəğbətlə qarşıladım... Əminəm ki, bu kitabların hər biri ayrılıqda bir tədqiqat əsəri, bütövlükdə isə bədii-publisistik janrda yazılacaq epopeyadır... Kitabda yer almış məqalələrə ilk söz yerində olan bu xronikal baxış "Ruhun daşqını"nın ideyası, mənəvi ucalığının detalları və Avdı Qoşqarın ədəbi obrazının müəllif tərəfindən dəqiq müşahidə olunmuş ştrixləridir..."*.Göründüyü kimi Şəfəq Nasir həm Əli Rza Xələflinin ədəbi fəaliyyətini, həm də onun Avdı Qoşqarın yaradıcılığına münasibətini ayrı-ayrı səmtlərdən gələn çayların qovuşduğu nəhr kimi tərənnüm edir. Avdı Qoşqarın yaradıcılığına münasibətini də Xələfli qələminin səsi ilə üzə çıxara bilir. Şübhəsiz, o, Əli Rza Xələflinin uğurunu ədəbi təcrübəsi ilə də əlaqələndirir. Hətta Xələflinin kitablarının sayını da yada salır.

*"Ruhun daşqını"* kimi kitabları oxuyanda bir daha inanırsan ki, əslində cəmiyyətin nizamını qoruyan, insan varlığının səsi kimi ərsəyə gələn sözdür. Elə ona görə də istərdim ki, oxucunu Avdı Qoşar sözünə bir az da yaxınlaşdırım. Bu yerdə məqsədimə uyğun olaraq Əli Rza Xələflinin "Ruhun daşqını" kitabında Avdı Qoşqarın bir şeirini oxucuya bütövlükdə çatdıran yazısından bir parçaya da diqqəti cəlb etmək istərdim: *"Əslində, Avdı Qoşqarın ötür-ötürlə 1989-cu ilin əvvəlinə gətirilmiş "Dünyaya yağaram qarla, yağışla" kitabına toplanmış şeirləri həmin evin içərisində olanları təsvirdən ibarətdir. Buradakı ən zəhərli hava, başı üstə dayanıb ayaqları göydə olanlar, "atın qabağındakı ət, itin qabağındakı ot", toyuqların ayağına yazılmış gübə iki yumurta, dolanışıq, ev-eşik dərdi, başlıların başsız yerində, başsızların başlı yerində olmağı, bir sözlə, "bu zəngin həyat" bütövlükdə bu kitabın içinə cəmlənib. Bu kitabda şairin ilk şeiri "Göyəzən dağına üz tutub" dediklərədir. Deyəsən, o inanır ki, döyüşün başlanmağına az qalıb; o, özü də açıq döyüşə tam hazırdır. Əslində, şairin keçib gəldiyi yol elə bu meydana gətirirdi. Göyəzən dağına üz tutmada isə bir xeyir-dua almaq, halallaşma məqamı vardır:*

***Ulu dədəm, hara saldın yönümü,***
***Boğur sellər harayımı, ünümü,***
***Qara əllər qaralayır günümü,***
***Nədən bilir qara ocaq daşıyam.***

***Umuduma toxta dedim, döz dedim,***
***İnadıma haray çəkdim, söz dedim,***
***Bu dünyanı ocaq bildim, köz dedim,-***
***Odsuz, közsüz indi necə yaşayım?***

***Boz daşından nə soruşum - söz yanar,***
***Nərgizinə baxmaq olmur - göz yanar,***
***Bu yaramın qayğısına döz, anam,***
***Buz sinəmdə bezik ürək daşıyım...***

***Daş sədd imiş yarğanlar da, dayaz da,***
***Necə ağrı mürgü döyür Arazda...***
***Götür məni şimşək boyu tolazda,***
***Bəlkə dünya üzərində şaxıyam.***

***Ümid əlim, qaya əlim, od əlim,***
***Misra-misra biçimlənim, gödəlim,***
***Fağırlaşma, dağ harayım, dağ kəlim,***
***Bu dünyadır, bu da mənəm, yaşayım...***

*Kitabın özül sütunu, ümumiyyətlə, Avdı Qoşqarın sonrakı 30 il ərzində yaratdığı sarayın bünövrə daşı kimi ikinci şeiri - "Şairlər bir xalqın qeyrət daşları" adlanır. Həmin dövr, yəni 80-ci illər mərhələsi üçün poeziyamızda bu şeir qədər həqiqəti bütün çılpaqlığı ilə, həm də yüksək poetik biçimdə verən bir örnək ya yoxdur, ya da çox azdır".* (**"Ruhun daşqını", səh: 77**). Əlavə şərhə lüzum görmürəm, çünki təqdim olunan şeirdə Avdı Qoşqarın poetik qüdrəti necə görünürsə, Əli Rza Xələflinin də bədii mətnə yanğı ilə yanaşması eləcə görünür.

"Ruhun daşqını" kitabı müəllif yanğısının bəhrəsidir. Sözlə alışıb-yanmağın, sözlə nəfəs almağın nəticəsi, barıbəheridir.

***(Davamı var)***

***25.01.2022***